Qurani-Kərimi
əzbərləmək üçün

# QIZIL QAYDALAR

***"Qızıl qaydalar" silsiləsindən olan ilk cib kitabçasında oxucuların nəzərinə müqəddəs kitabımız Qurani-Kərimi əzbərləmək üçün on bir qızıl qayda təqdim olunur.***

بسم الله الرحمن الرحيم

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

## BİRİNCİ QAYDA
## İxlaslı olmaq

Quran əzbərləyən zaman niyyəti ixlaslı edib əsas məqsədi düzəltmək lazımdır. Həmçinin Quran əzbərləməyi və ona əməl etməyi Allah üçün, Onun Cənnətinə müvəffəq olmaq və Onun razılığını qazanmaq üçün etmək lazımdır. Quranı oxuyan və onu əzbərləyən kəs böyük mükafat qazanır. Uca Allah buyurur: **“Biz Kitabı sənə bir həqiqət kimi nazil etmişik. Sən də, di-**

**nin yalnız Allaha məxsus olduğuna *iman gətirərək* Ona ibadət et! Doğrusu, əsl din ancaq Allaha məxsusdur"[1].**

**"De: "Mənə, dini yalnız Allaha məxsus edərək, Ona ibadət etmək əmr olunmuşdur!"[2].**

Peyğəmbər ﷺ demişdir: **"Uca Allah belə deyib ki, Mən şəriklərin şirkindən uzağam. Kim bir əməl edər və bu əməldə Mənə başqasını şərik qoşarsa, onu da, şirkini də tərk edərəm"**.[3]

---

[1] "əz-Zumər" surəsi, 2-ci və 3-cü ayələr.

[2] "əz-Zumər" surəsi, 11-ci ayə.

[3] Bu hədisi Buxari və Muslim rəvayət etmişdir.

Quranı kiməsə göstərmək və ya eşitdirmək məqsədilə oxuyub əzbərləyən şəxs üçün Allah tərəfindən heç bir savab və mükafat yoxdur. Həqiqətən, Quranı dünya malı üçün oxuyan və bunun müqabilində dünya mükafatı istəyən şəxs günahkardır.

## İKİNCİ QAYDA
### Tələffüzü və oxumağı düzəltmək

İxlasdan sonra əzbərləmək yolunda ən birinci atılan addım Quranın düzgün tələffüzünü öyrənməkdir. Buna ancaq Quranı gözəl oxuyan qarini və ya hafizi dinləmək vasitəsilə nail olmaq olar. Hətta ərəb dilini ən gözəl bilən Peyğəmbərimizin ﷺ özü də onu Cəbraildən ﵇ dinləyərək öyrənmişdir. Peyğəmbərimiz ﷺ hər il Ramazan ayında Quranı Cəb-

railə bir dəfə oxuyardı. Vəfat etdiyi il isə onu iki dəfə oxudu.[4]

Həmçinin Peyğəmbərimiz ﷺ əshabələrinə Quranı şifahi olaraq öyrətmişdir. Əshabələrdən də onların ardınca gələnlər bu qayda ilə öyrənmişlər. İnsan ərəb dilini və onun qaydalarını nə qədər yaxşı bilsə belə özünə arxayın olmamalı, əksinə, ilk növbədə Quran oxumağını təkmilləşdirməli və onu şifahi olaraq mahir bir qaridən öyrənməlidir. Belə ki, Qurani-kərimdə olan bir çox ayələr məşhur ərəb dili qaydalarına müxalifdir.

---

[4] Bu hədisi Buxari rəvayət etmişdir.

## ÜÇÜNCÜ QAYDA
## Hər gün nə qədər əzbərləyəcəyini müəyyən etmək

Quranı əzbərləmək istəyən şəxs hər gün əzbərləyə biləcəyi qədəri – bir neçə ayə və ya bir səhifə, yaxud iki səhifə, yaxud da cüzün səkkizdə birini və s. müəyyən etməlidir. O nə qədər əzbərləyəcəyini yəqin etdikdən sonra onu dəfələrlə təkrarlayıb tam şəkildə öyrənməlidir. Bu təkrar da öz növbəsində avazla olmalıdır. Bu isə ilk növbədə sünnəyə tabe olmaqdan, sonra isə hafizəni gücləndirməkdən ötrüdür. Çünki bir ritmdə olan

avaz qulağa xoş gəlir və bu da dili müəyyən avaza öyrədərək əzbərləməyə çox kömək edir. Bununla da həmin şəxs müəyyən bir ayəyə uyğun olan avazda və ya onun oxunuş ritmində çatışmamazlıq hiss etdikdə orada olan xətanı dərhal hiss edir. Belə ki o, xəta edərkən dilinin ona tabe olmadığını və avazda nöqsanın baş verdiyini hiss edərək qiraəti yenidən təkrar edir. Bütün bunlar onu göstərir ki, Quranı avazla oxumaq gərəkli əməldir və Peyğəmbərimizin ﷺ sözünə görə buna müxalif olmaq olmaz. Peyğəmbərimiz ﷺ demişdir: **"Quranı avazla oxumayan bizdən deyil"**.

## DÖRDÜNCÜ QAYDA
## Gündəlik nəzərdə tutulan miqdarı tam və gözəl şəkildə əzbərləmədən digərinə keçməmək

Quran əzbərləyən şəxs əzbərlədiyini tam yadda saxlamamış yenisinə keçməməlidir. Bu da əzbərlədiyinin tam şəkildə zehnə həkk olunması üçündür. Şübhəsiz ki, müəyyən edilmiş miqdarı əzbərləməyə kömək edən amillərdən biri də Quranı əzbərləyən şəxsin gecə və gün-

düz imkan daxilində ona vaxt sərf etməsidir. Həmin şəxs bunu gündəlik namazlarında, namazları gözlədiyi vaxtlarda və namazdan sonrakı vaxtlarda oxumaq vasitəsilə edə bilər. Bu yolla da Quran əzbərləmək asanlaşır. Bunu hətta bir neçə işlə məşğul olan şəxslər də edə bilər. Çünki bu şəxs ayələri əzbərləmək üçün xüsusi bir vaxt təyin etmir, əksinə, o öz qiraətini yalnız qarini dinləyərək düzəldir. Sonra da əzbərlədiyini namazlarda tətbiq edir. Belə-

liklə o, həmin gün ərzində bir neçə işlə məşğul olmasına baxmayaraq, axşam olduqda gündəlik təyin etdiyi ayələri əzbərləmiş və onları zehninə tam həkk etmiş olur. Odur ki, Quran əzbərləyən şəxs təzə ayələrə keçməyə tələsməməlidir. O, köhnə ayələri tam əzbərləyənə qədər ertəsi gün də onların üzərində davam etməlidir.

## BEŞİNCİ QAYDA
## Əzbər zamanı eyni çapda yazılmış Quran kitabından əzbərləməyə riayət etmək

Əzbərləməyə kömək edən amillərdən biri də odur ki, Quran əzbərləyən şəxs mütləq özü üçün müəyyən bir Quran kitabı seçməlidir. Ona görə ki, insan eşitməklə yanaşı ayələrin yazılışını görməklə də əzbərləyir. Çünki Quran kitabını çox oxuduqda və ona çox nəzər saldıqda, ayələrin orada olan şəkilləri və yerləri də zehində həkk

olur. Eyni kitabdan əzbərləməyən və ya ayələrin yerləri fərqli olan müxtəlif çaplarla yazılmış Quran kitablarından əzbərləyən şəxsə Quranı əzbərləmək daha çətin olur. Odur ki, Quran əzbərləyən şəxs ayələri eyni çapda yazılmış Quran kitabından əzbərləməyə riayət etməlidir.

## ALTINCI QAYDA
## Əzbərləməyi asanlaşdırmaq üçün ayələri başa düşmək

Əzbərləməyə kömək edən ən böyük amillərdən biri də əzbərlədiyin ayələri başa düşmək və onlar arasında olan bağlılığı bilməkdir. Ona görə də Quran əzbərləyən şəxs əzbərləmək istədiyi ayələrin təfsirini oxumalı və bu ayələr arasında olan bağlılığı bilməlidir ki, oxuduğu zaman bu şeylər onun fikrinə gəlmiş olsun. Bu da öz növbəsində ayələri yada salmağı onun

üçün asanlaşdırır. Bununla yanaşı, Quranı əzbərlədikdə yalnız ayələrin fəhminə arxayın olmamalı, əksinə, ayələri təkrarlamaq başlıca əsas olmalıdır. Bu ona görədir ki, hərdən insanın fikri dağınıq olduqda belə, dili qiraətə uyğun gəlsin. Yalnız fəhminə arxayın olan şəxsin fikri dağılan kimi, qiraəti də kəsilir. Bu cür hallar isə tez-tez, xüsusən də uzun qiraətlər zamanı baş verir.

# YEDDİNCİ QAYDA

## Bir surəni axıra qədər əzbərləmədən digərinə keçməmək

Quran əzbərləyən şəxs hər hansı bir surəni əzbərləyib başa çatdırdıqdan sonra onun hifzini tam şəkildə mənimsəmədən və əvvəlini sonu ilə bağlamadan başqa surəyə keçməməlidir. Belə ki, onun dili bu surəni asanlıqla tələffüz etməli və ayələri yada saldıqda heç bir çətin vəziyyətə düşməməlidir. Əksinə, onun hifzi o dərəcədə güclü olmalıdır ki, hərdən fikri ayələrin mənasını izləməkdən

yayınsa belə, surəni tələsmədən, asanlıqla oxusun. Necə ki, bizim hər birimiz heç bir çətinlik çəkmədən və hazırlaşmadan "Fatihə" surəsini oxuyur. Bu da həmin surəni çoxlu təkrar etməyimizdən və onu daim oxumağımızdan irəli gəlir. Nadir hallar müstəsna olmaqla, Quranın bütün surələrinin hifzi "Fatihə" surəsinin hifzi kimi olur. Biz "Fatihə" surəsini bir nümunə olsun deyə misal çəkdik. Sonra əzbərlənən surələr bir-birinə sıx bağlı şəkildə zehnə həkk olunmalıdır. Quran əzbərləyən şəxs həmin surəni yalnız mükəmməl əzbərlədikdən sonra digərinə keçə bilər.

## SƏKKİZİNCİ QAYDA

### Quranı daim əzbərdən kiməsə danışmaq

Quran əzbərləyən kəs təkcə öz hafizəsinə bel bağlamamalı, əzbərlədiyini daim başqasına danışmalı və ya onu Qurandan izləməlidir. O bunu məharətli hafizlə etsə daha yaxşı olar. Quran əzbərləyən şəxs nəyi isə unutduqda və ya diqqətsiz olaraq təkrarladıqda həmin hafiz onun yadına salar.

Biz bəzən surəni səhv əzbərləyir və Qurana nəzər saldıqda

belə buna diqqət yetirmirik. Çünki çox vaxt əzbərdən oxumaq görməyi qabaqlayır və beləliklə həmin şəxs əzbərdən oxuduğu zaman Qurana baxsa da, xətasını görmür. Elə buna görə də Quranı əzbərdən başqasına danışmaq ona bu xətaları düzəltməyə və onlara daim diqqət yetirməyə səbəb olur.[5]

---

[5] Bu hədisi Buxari rəvayət etmişdir.

# DOQQUZUNCU QAYDA
## Quranı davamiyyətli oxumaq

Quran yadda qalmasına görə şer və ya nəsr əsərlərindən fərqlidir. Çünki, Quran yaddan çox tez çıxır. Peyğəmbər ﷺ belə demişdir: **"Canım Əlində olan Allaha and olsun ki, o (Quran), kəndirdən açılıb qaçan dəvədən daha tez (sahibini) tərk edir".**[6]

---

[6] Bu hədisi Buxari və Muslim rəvayət etmişdir.

Quranı əzbər bilən şəxs onu azacıq da olsa təkrarlamasa, Quran ondan uzaqlaşır və o, tez bir zamanda unudulur. Elə buna görə də daim Quran oxumalı və əzbərlədiklərini təkrarlamalısan. Bu barədə Peyğəmbər ﷺ demişdir: **"Quranı əzbərdən bilən adam dəvələrini buxovda saxlayan kimsəyə bənzəyir. Əgər bu adam onları bu vəziyyətdə saxlasa, onları daim özündə saxlamış olar, yox, əgər başlı-başına buraxarsa, onlar qaçıb gedərlər".**

Başqa bir rəvayətdə isə belə demişdir: **"Quranla əhd bağla-**

**yın** (onu unudulmaqdan qoruyun)! **Nəfsim əlində olana and olsun ki, o** (Quran) **ipdən** (açılıb) **qaçan dəvədən də bərk qaçır"**.

Bu o deməkdir ki, Quran əzbərləyən şəxs hər gün ən azı Quranın otuz cüzündən birini, ən çoxu isə on cüzünü təkrarlamalıdır. Peyğəmbər ﷺ demişdir: **"Kim Quranı üç** (gündən az müddətdə) **oxuyub qurtararsa, onu anlamaz"**.

Mütəmadi olaraq Quran oxumaq əzbərlənən ayələri yadda saxlamağa kömək edir, əks halda isə Quran yaddan çıxır.

## ONUNCU QAYDA
## Mütəşabih, yəni bir-birinə bənzər ayələrə diqqət yetirmək

Qurani-Kərimdə məna və oxunuşca mütəşabih ayələr vardır. Uca Allah buyurur:

**"Allah Sözün ən gözəlini –** *ayələri* **bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır".**[7]

---

[7] əz-Zumər surəsi, 23-cü ayə.

Quranda olan altı mindən çox ayədən iki minə yaxını oxşardır. Bu ayələr bir-birindən bəzən bir hərfə, bəzən də bir sözə görə fərqlənirlər. Buna görə də bacarıqlı qari mütəşabih ayələrə xüsusi diqqət yetirməlidir. Biz burada mütəşabih dedikdə, ləfzləri bir-birinə oxşar ayələri nəzərdə tuturuq. Bu cür mütəşabih ayələrə mümkün qədər çox diqqət yetirdikdə hifz təkmilləşir. Mütəşabih ayələrə daha çox diqqət verən kitabları çoxlu oxumaqla mükəmməl hifzə nail olmaq mümkündür. Bu

kitabların ən məşhurları aşağıdakılardır:

– **"Durratut-tənzil və ğurratut-tə'vil"** (Xatib əl-İskafi);

– **"Əsrarut-təkrar fil-Quran"** (Mahmud əl-Kirmani).

## ON BİRİNCİ QAYDA
## Qızıl hifz yaşından istifadə etmək

Xoşbəxtdir o kəs ki, ömrünün qızıl hafizə illərindən istifadə edir. Bu müddət təqribən beş yaşından iyirmi üç yaşına kimidir. Həmin illərdə insanın hafizəsi çox güclü olur və ona görə də bu illərə qızıl hafizə illəri deyilir. İnsanın hafizəsi beş yaşına qədər qızıl hafizə illərinə nisbətən daha zəif olur. Eləcə də təqribən iyirmi üç yaşından sonra hafizə zəifləyir. Odur ki, hər bir insan ömrünün qızıl

hafizə illərindən səmərəli istifadə edib bacardığı qədər Allahın kitabından əzbərləməlidir. Bu yaşda əzbərləmək daha asan, unutmaq ehtimalı isə daha az olur. Bundan sonrakı yaşlarda isə insan çox çətinliklə əzbərləyir və daha tez unudur. Doğru demişlər ki, uşaqlıqda əzbərlənən, daş üzərindəki naxış kimi, yaşa dolduqda əzbərlənən isə su üzərində olan naxış kimidir.

Odur ki, bizim hamımız qızıl hafizə illərindən səmərəli istifadə etməliyik. Əgər biz həmin illəri ötürmüşüksə, çalışmalıyıq ki, övladlarımız bu yaş dövründən istifadə etsinlər.

**Müvəffəqiyyət Allahdandır.**

**Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə və bütün əshabələrinə Allahın xeyir-duası və salamı olsun!**

**اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَ شُكْرِكَ وَ حُسْنِ عِبَادَتِكَ**

**Allahummə! Əinni alə zikrikə və şukrikə və husni ibadətikə**

**Allahım! Səni zikr etməyə, Sənə şükr etməyə və Sənə gözəl tərzdə ibadət etməyə mənə kömək ol!**